# AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRLİYİ

## ƏMR

№ 17

Bakı şəhəri "20" may 2016 il

**Azərbaycan Respublikası Energetika Nazirliyinin "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası üzrə illik iş planının təsdiq edilməsi haqqında**

"Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 aprel tarixli 1993 nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədi ilə

**Əmr edirəm:**

1. Azərbaycan Respublikası Energetika Nazirliyinin "Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası üzrə illik iş planı təsdiq edilsin (əlavə olunur).

2. Aparatın rəhbərinə (İ.Hüseynov) tapşırılsın ki, Azərbaycan Respublikası Energetika Nazirliyinin "Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası üzrə illik iş planında nəzərdə tutulan tədbirlərin aidiyyəti olanlar tərəfindən icrasını əlaqələndirsin.

3. Elektron idarəetmə və informasiya şöbəsinə tapşırılsın:

3.1. Azərbaycan Respublikası Energetika Nazirliyinin "Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası üzrə illik iş planı təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına elektron qaydada məlumat versin;

3.2. Azərbaycan Respublikası Energetika Nazirliyinin "Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası üzrə illik iş planında nəzərdə tutulan işlərin icrası barədə yekun hesabatların hər il dekabrın 30-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına təqdim olunmasını təmin etsin.

4. Dövlət Qaz Nəzarəti İdarəsinin rəisi (A. Zeynalov) və Dövlət Enerji Nəzarəti İdarəsinin rəisi (P. Məmmədov) öz strukturlarında "Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

5. Elektron idarəetmə və informasiya şöbəsinin müdiri C.İbrahimov Nazirlik tərəfindən Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrası üzrə məsul şəxs təyin edilsin. Məsul şəxs

ayda bir dəfə və tələb olunduqda nazirliyin rəhbərliyinə Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrası barədə hesabat təqdim etsin.

6. Nazirliyin aparatının struktur bölmələri və strukturuna daxil olan idarələr:

6.1. öz fəaliyyətlərində "Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın müddəalarını rəhbər tutsunlar;

6.2. Azərbaycan Respublikası Energetika Nazirliyinin "Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası üzrə illik iş planında nəzərdə tutulan tədbirlərin icrası barədə illik hesabatı hər il dekabrın 15-dək Elektron idarəetmə və informasiya şöbəsinə təqdim etsinlər.

7. Ümumi şöbə bu əmrin surətinin nazirliyin aparatının struktur bölmələrinə və strukturuna daxil olan idarələrə çatdırılmasını təmin etsin.

8. Elektron idarəetmə və informasiya şöbəsi bu əmrin nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

9. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Nazir Natiq Əliyev

Azərbaycan Respublikası Energetika Nazirliyinin
20 may 2016-cı il tarixli
17 nömrəli əmri ilə təsdiq edilmişdir

Azərbaycan Respublikası Energetika Nazirliyinin "Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası üzrə illik
İş Planı

| № | Görüləcək işlər və gözlənilən nəticələr | İcraçı | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|
| **1. Elektron xidmətlərin təkmilləşdirilməsi** | | | |
| 1.1 | Nazirliyin fəaliyyətinə aid "Elektron hökumət" portalının imkanları və istifadəsi ilə bağlı vətəndaşlar arasında ictimai maarifləndirmə tədbirlərinin və təqdimatların keçirilməsi | Aparatın rəhbəri və Elektron idarəetmə və informasiya şöbəsi | 2016-2018 |
| 1.2. | Nazirliyin elektron xidmətlərin tətbiqi ilə əlaqədar dövlət orqanları tərəfindən tələb edilən rəsmi sənəd və arayışların sayının azadılmasının təmin edilməsi | Aparatın rəhbəri, Lisenziya və xüsusi icazələr şöbəsi və Elektron idarəetmə və informasiya şöbəsi | 2016-2017 |
| **2. İnformasiya əldə edilməsinin təmin olunması** | | | |
| 2.1. | Nazirliyin internet səhifələrinin mobil versiyalarının hazırlanması, sosial şəbəkələrdə səhifələrinin açılması və onların aktiv fəaliyyətinin təmin edilməsi | Aparatın rəhbəri və Elektron idarəetmə və informasiya şöbəsi | 2016-2018 |
| **3. Vətəndaş cəmiyyəti üzvlərinin fəaliyyətinin genişlənməsi və ictimai iştirakçılığın artması sahəsində** | | | |
| **3.1. Vətəndaş cəmiyyəti üzvlərinin fəaliyyətinin dəstəklənməsi** | | | |
| 3.1.1. | Açıq hökumət prinsiplərinin təşviqi və korrupsiyanın qarşısının alınması istiqamətlərində qeyri-hökumət təşkilatlarının layihə və təşəbbüslərinə dəstəyin prioritet istiqamət kimi müəyyən edilməsi | Aidiyyəti şöbələr | 2016-2018 |
| 3.1.2. | "Açıq hökumət tərəfdaşlığı" vətəndaş cəmiyyəti platformasının yaradılması və fəaliyyətinin dəstəklənməsi | Ümumi şöbə, Elektron idarəetmə və informasiya şöbəsi və struktura daxil olan idarələr | 2016 |
| **3.2. İctimai iştirakçılığın genişləndirilməsi** | | | |
| 3.2.1. | İctimai şuraların fəaliyyətinin təşkil edilməsi, gücləndirilməsi və davamlılığının təmin edilməsi | Aparatın rəhbəri və aidiyyəti şöbələr | 2016-2018 |
| 3.2.2. | İctimai şuraların tərkibi və fəaliyyəti ilə bağlı rəsmi internet resurslarında ayrıca bölmələrin yaradılması və məlumatların mütəmadi yenilənməsi | Elektron idarəetmə və informasiya şöbəsi | 2016-2018 |
| **4. Maliyyə şəffaflığının təmin edilməsi** | | | |
| 4.1. | Energetika sahəsində səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan hüquqi | İqtisadiyyat, elm və innovasiya şöbəsi, Maliyyə-mühasibat | 2016-2018 |

| | | | |
|---|---|---|---|
| | şəxslərin və büdcə təşkilatlarının illik maliyyə fəaliyyəti, o cümlədən dövlət büdcəsindən ayrılmış vəsaitdən və ya onlara verilmiş əmlakdan istifadə ilə bağlı məlumatların internet səhifəsində dərc edilməsi ilə əlaqədar qanunvericiliyin təkmilləşdirilməsi və bu hesabatların dərc edilməsinə nəzarətin gücləndirilməsi | şöbəsi və Elektron idarəetmə və informasiya şöbəsi | |
| 4.2. | Nazirlik tərəfindən dövlət satınalmaları ilə bağlı məlumatların internet səhifələrində yerləşdirilməsi | İqtisadiyyat, elm və innovasiya şöbəsi, Maliyyə-mühasibat şöbəsi və Elektron idarəetmə və informasiya şöbəsi | 2016-2018 |
| **5. Korrupsiyanın qarşısının alınması sahəsində tədbirlər və qanunvericiliyin təkmilləşdirilməsi** | | | |
| 5.1. | "ASAN xidmət" mərkəzlərində rəhbər tutulan fəaliyyət prinsipləri və şəffaflıq standartlarının Nazirlikdə tətbiqi ilə bağlı tədbirlərin həyata keçirilməsi | aidiyyəti şöbələr | 2016-2018 |
| 5.2. | Energetika sahəsində sahibkarların qarşılaşdıqları problemlərin həlli məqsədi ilə onların müraciətlərinə baxılması işinin təkmilləşdirilməsi və müvafiq tədbirlərin görülməsi | aidiyyəti şöbələr | 2016-2018 |
| 5.3. | İqtisadi sahədə həyata keçirilən islahatlar, onların məqsədi və mahiyyəti barədə ictimaiyyətin məlumatlandırılmasının təmin edilməsi | İqtisadiyyat, elm və innovasiya şöbəsi və Elektron idarəetmə və informasiya şöbəsi | 2016-2018 |
| **6. Maarifləndirmə və əməkdaşlıq** | | | |
| 6.1. | Nazirlikdə müxtəlif hədəf qrupları, o cümlədən dövlət qulluqçuları üçün korrupsiya qarşı mübarizə və etik davranış üzrə təhsil-tədris proqramlarının hazırlanması, təlim və treninqlərin keçirilməsi, belə təşəbbüslərin dəstəklənməsi | Aparatın rəhbəri və Dövlət qulluğu və kadrlar şöbəsi | 2016-2018 |
| 6.2. | Açıq hökumət və korrupsiya qarşı mübarizə sahəsində sosial çarxların, bukletlərin, yaddaş kitabçalarının və digər maarifləndirici materialların nəşri və paylanması | Aparatın rəhbəri, Dövlət qulluğu və kadrlar şöbəsi və Elektron idarəetmə və informasiya şöbəsi | 2016-2018 |
| **7. Fəaliyyət Planının icrasının monitorinqi və nəzarətin təşkili** | | | |
| 7.1. | Fəaliyyət Planının icrasının monitorinqi prosesinə informasiya texnologiyalarının tətbiqi üzrə tədbirlərin görülməsi | Aparatın rəhbəri və Elektron idarəetmə və informasiya şöbəsi | 2016-2018 |
| 7.2. | Nazirliyin daxili nəzarət qurumları ilə korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış orqanlar arasında məlumat mübadiləsi və səmərəli əlaqələndirmənin təşkili | Aparatın rəhbəri, Dövlət qulluğu və kadrlar şöbəsi və Məxfi və səfərbərlik şöbəsi | 2016-2018 |